# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş “Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 223** **Bakı şəhəri, 28 iyul 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 56 (Cild I); 2024, № 2, maddələr 209, 213, № 5 (II kitab), maddə 579, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nın 2.3-cü bəndində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "a) fəhlələr:" abzası üzrə:

1.1.1. "qırma, daşıma, topaqələviləşdirmə sahələrində nəzarətçilər" sətri aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| qızıl otağının nəzarətçiləri və emal, qırma, daşıma, topaqələviləşdirmə sahələrində nəzarətçilər |

1.1.2. "əməliyyat bölməsində operatorlar" sətri çıxarılsın və "qırma, daşıma, topaqələviləşdirmə sahələrində operatorlar" sətri aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| qızıl otağının operatorları və emal, qırma, daşıma, topaqələviləşdirmə sahələrində operatorlar |

1.1.3. "metallurqlar" sətri çıxarılsın;

1.2. "b) rəhbərlər və mütəxəssislər:" abzasına "mühəndislər, o cümlədən elektrik mühəndisləri" sətrindən sonra aşağıdakı məzmunda yeni sətir əlavə edilsin:

| |
|---|
| metallurqlar |

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tarif-ixtisas sorğu kitabçalarının altı ay müddətində bu Qərara uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***